# SOSIAL EMOSIONAL TƏHSILIN ŞAGIRDLƏRIN HƏYAT BACARIQLARININ FORMALAŞDIRILMASINDA ROLU

https://doi.org/10.5281/zenodo.19207898

**Əsədova Sevinc Sabir qızı**
*ADPU, XDM, ingilis dili müəllimi*
*e-mail: sevinj asadova@yahoo.com*

**Xülasə**

*Müasir dövrdə təhsil yalnız akademik biliklərin verilməsi ilə məhdudlaşmır. Cəmiyyətin sürətli inkişafı, informasiya axının artması və sosial münasibətlərin mürəkkəbləşməsi şagirdlərdən yalnız bilik deyil, eyni zamanda güclü sosial və emosional bacarıqlar tələb edir. Bu baxımdan sosail-emosional təhsil (SET) müasir təhsil sisteminin vacib istiqamətlərindən biri hesab olunur.*

**Açar sözlər**: *informasiya, cəmiyyət, inkişaf*

# РОЛЬ СОЦИАЛЬНО-ЭМОЦИОНАЛЬНОГО ВОСПИТАНИЯ В ФОРМИРОВАНИИ ЖИЗНЕННЫХ НАВЫКОВ УЧАЩИХСЯ

**Асадова Севиндж Сабировна**
*АГПУ, ЦИЯ, учитель английского языка*
*e-mail: sevinj_asadova@yahoo.com*

**Аннотация**

*В современную эпоху образование не ограничивается предоставлением академических знаний. Быстрое развитие общества, увеличение информационного потока и сложность социальных отношений требуют от учащихся не только знаний, но и развитых социально-эмоциональных навыков. В этом отношении социально-эмоциональное воспитание (СЭВ) считается одним из важных направлений современной системы образования.*

**Ключевые слова**: *информация, общество, развитие*

# THE ROLE OF SOCİAL EMOTİONAL EDUCATİON İN THE FORMATİON OF STUDENTS' LİFE SKİLLS

**Asadova Sevinj Sabir**
ASPU, CFL, English teacher
e-mail: sevinj_asadova@yahoo.com

**Summary**

*In the modern era, education is not limited to the provision of academic knowledge only. The rapid development of society, the increase in the flow of information and the complexity of social relations require students not only knowledge, but also strong social and emotional skills. In this regard, social-emotional education (SET) is considered one of the important directions of the modern education system.*

**Key words**: *information, society, development*

Sosial-emosional təhsil şagirdlərin özünü tanıma, emosiyalarını idarəetmə, empati qurma, sağlam münasibətlər formalaşdırma və məsuliyyətli qərarlar qəbul etmə bacarıqlarını inkişaf etdirməyə yönəlmiş sistemli tədris prosesidir. Bu yanaşma şagirdlərin həm şəxsi, həm də ictimai həyatda uğurlu olmalarına kömək edir. Yaşadığımız onillikdə şagirdlərin gələcək iş həyatında onların həm akademik nailiyyətlərə, həm də sosial və emosional bacarıqlara ehtiyacları olduğuna kifayət qədər sübutlar var. Şagirdin yüksək emosional intellektini inkişaf etdirmək və komandada işləmək bacarıqlarını formalaşdırmaq diqqət mərkəzində saxlanmalı olan məqamlardandır. İlk növbədə, sosial-emosional təhsil şagirdlərdə özünü dərk etmə bacarığını inkişaf etdirir. Şagird öz güclü və zəif tərəflərini tanıyır, emosiyalarını başa düşür və onları düzgün ifadə etməyi öyrənir. Bu isə stresin azaldılmasına, özünə inamın artmasına və psixoloji sabitliyə müsbət təsir göstərir.

Bundan əlavə, sosial bacarıqların formalaşması komanda işi və əməkdaşlıq üçün mühüm əhəmiyyət daşıyır. Müasir əmək bazarında ünsiyyət qurmaq, konfliktləri həll etmək və birgə fəaliyyət göstərmək əsas tələblərdən biridir. Sosial-emosional təhsil bu bacarıqları məktəb yaşından inkişaf etdirərək gələcək peşə həyatına zəmin yaradır.

Digər vacib məqam məsuliyyətli qərarvermə bacarığıdır. Şagirdlər müxtəlif situasiyalarda düzgün seçim etməyi, nəticələri əvvəlcədən düşünməyi və etik davranış qaydalarına riayət etməyi öyrənirlər. Bu isə cəmiyyət üçün daha məsuliyyətli və aktiv vətəndaşların formalaşmasına xidmət edir.

Araşdırmalar göstərir ki, sosial-emosional təhsil tətbiq olunan məktəblərdə şagirdlərin akademik göstəriciləri daha yüksəlir. Çünki emosional sabitlik və motivasiya öyrənmə prosesini daha səmərəli edir. Məktəbdə sağlam psixoloji mühit formalaşır və bullinq halları azalır. Castle strukturunu nəzərdən keçirək. O, 5 sahədən ibarətdir və bizə stressin öhdəsindən gəlməyə, başqalarının fikirlərini anlamağa, birlikdə işləyib məktəblər və ictimai birliklər yaratmağa kömək edir. CASEL abreviaturası ingilis dilində 5 sözün ilk hərflərinin birləşməsindən yaranıb. Bu abreviatura C – Collaborative (əməkdaşlıq), A – Akademik, S – sosial, E – emosional, L – learning (öyrənmə) sözlərinin ixtisarıdır. 1. Özünüdərk – özümüzü və kim olduğumuzu düşünməkdir. Bu, mədəniyyətimizi, düşüncələrimizi, duyğularımızı, fikrimizcə nəyə qadir olduğumuzu və bu şeylərin davranışımıza, inancımıza necə təsir edə biləcəyini başa düşməkdir. 2. Özünüidarəetmə – fərdi və kollektiv məqsədlərə nail olmaq üçün müxtəlif vəziyyətlərdə duyğuları, düşüncələri və hərəkətləri idarə etmək qabiliyyətidir. Bu, stress və narahatlıqların aradan qaldırılmasını, çətinliklərin öhdəsindən gəlinməsini və müsbət dəyişikliklərin yaradılmasını əhatə edir.

3. Sosial məlumatlılıq – başqalarını necə başa düşməyi, fərqli fikirləri necə qəbul etməyi və hətta bizdən fərqli olan insanlarla necə empati qura bilməyi əhatə edir. Bu, həmçinin ətrafımızdakılarla ünsiyyət bacarığını necə inkişaf etdirdiyimizə və yaratdığımız münasibətə necə təsir etdiyini başa düşməyə kömək edir; 4. Ünsiyyət bacarıqları – başqaları ilə effektiv qarşılıqlı əlaqədə olmaq və davamlı dostluq bağları qurmaqdır. Bura aydın ünsiyyət, problemləri birlikdə həll etmək, münaqişələri və fikir ayrılıqlarını həll etmək, özünüzün və başqalarının hüquqlarını qorumaq daxildir. 5. Qərar qəbuletmə – məsuliyyətli bir qərar qəbul etmək, qayğıkeş və konstruktiv seçim etmək üçün bir araya gəlməkdir. Bu hərəkətlərin özümüzə və başqalarına təsirinin təhlili və kollektiv rifahı dəstəkləyən həllərin tapılmasıdır

Nəticə etibarı ilə sosial-emosional təhsil şagirdlərin hərtərəfli inkişafında mühüm rol oynayır. Bu yanaşma yalnız bilikli deyil, eyni zamanda empatik, məsuliyyətli və sosial cəhətdən aktiv fərdlərin yetişməsinə şərait yaradır. Müasir təhsil sistemində sosial-emosional komponentin gücləndirilməsi gələcəyin sağlam və infişaf etmiş cəmiyyətinin formalaşdırılmasının əsas şərtlərindən biridir.

## ƏDƏBIYYAT SIYAHISI:

1. Durlak, J.A. The İmpact of enhancing students social emotional learning, Child development, 82(1), p.405-432.

2. Azərbaycan Respublikası Təshil Nazirliyi – 2020, Ümumi Təhsilin dövlət standartları və proqramları, Bakı.

3. https. //casel.org/what-is-sel/

4. Kiuru N, Wang M-T, Salmela-Aro K, Kannas L, Ahonen T & Hirvonen R. Associations between adolescent interpersonal relationships, school well-being, and academic achievement during educational transitions. Journal of Youth and Adolescence 12/2019.1